

# Qətiyyətin və ədalətin hökmü

## Qarabağ qeyri-qanuni erməni silahlı birləşmələrindən birdəfəlik təmizləndi

**"Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir".**

2023-cü il sentyabrın 20-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin qürurla verdiyi bu möhtəşəm qələbə xəbəri Azərbaycan xalqının ruhuna məlhəm kimi yayıldı, torpaqlarımızın bütövlüyündən, ölkəmizin suverenliyindən doğan fəxarət hissindən ürəyimiz dağa döndü.

Həmin gün "Qarabağ Azərbaycandır!" haqq nidası ilə bir daha dünyada əks-səda yaradan qalib lider İlham Əliyev tarixin, ədalətin, hüququn diktə etdiyi gerçəyi dəyişdirməyə yönəlik bütün məkrli, riyakar, separatçı meyillərin, planların məhvə məhkum olduğunu böyük əzm və qətiyyətlə bəyan etdi, cəmi bir gün ərzində Qarabağdakı qondarma rejimə ağ bayraq qaldırtdırmaqla Azərbaycanın beynəlxalq hüquqla tanınan suveren ərazisində ikinci erməni dövləti yaratmaq kimi çirkin oyunlara imkan verməyəcəyi mesajını çatdırdı.

### Bölgədə sülhün, barışığın, birgəyaşayışın qarantı

Azərbaycan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri zamanından öncə və lazımi qaydada yerinə yetirərək, bir daha bölgədə sülhü, barışığı, birgəyaşayışı bərqərar edən ölkə olduğunu əməli fəaliyyəti ilə təsdiqləmişdi. Lakin təəssüf ki, qarşı tərəf üçün bunu demək mümkün deyil.

Ermənistan iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə bağlı aparılan üçtərəfli danışıqlar ərəfəsində Azərbaycana qarşı daim təxribatlar törədib, bununla da barışığa əngəl olduğunu açıq şəkildə nümayiş etdirib.

Cari il iyulun 15-də Brüsseldə baş tutan 6-cı üçtərəfli görüşdən sonra isə Ermənistanın ölkəmizə qarşı təxribatlarının daha da intensivləşməsi heç kəsin gözündən yayınmadı.

İrəvanın başlatdığı siyasi, hərbi təxribatlara bəzi qərəzli xarici ölkə və təşkilatlardan, media qurumlarından dəstək görməsi təcavüzkar ölkəni və marionet rejimi daha da azğınlaşdırmışdı. Hətta separatçı rejim cari il sentyabrın əvvəlində Qarabağda qondarma "prezident seçkiləri" düzənləmək kimi qudurğanlıq etmiş, Ermənistan isə qondarma seçkiləri dəstəkləmək kimi həddini aşan cürət göstərmiş və bütün bunlarla bir daha sübut etmişdi ki, Azərbaycana qarşı ərazi iddiası güdməkdən əl çəkmək niyyətində deyil.

Eyni zamanda Laçın yolu ətrafında çıxardıqları məzhəkələr, guya Xankəndidə aclıq olması ilə bağlı yalan nağıllar quraşdıraraq beynəlxalq ictimaiyyəti çaşdırmaq istəmələri də ermənilərin riyakar planlarından xəbər verirdi.

Lakin Qarabağda yaşayan erməniəsilli sakinlərin reinteqrasiyasında qərarlı olan Azərbaycanın bu istiqamətdə ardıcıl və əməli addımlar atması erməni yalanlarının dünyada ayaq açıb yeriməsinə imkan vermədi.

Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının paralel olaraq humanitar yüklərin daşınması üçün istifadəyə açılması ilə dünya bir daha Azərbaycanın humanizm siyasətinin nümunəsinə, Ermənistanın isə yalanlarına şahidlik etdi.

Ölkəmizə qarşı "humanitar təzyiq" metodunun iflasa uğradığını görən Ermənistan dərhal hərbi təxribatlara, terrorlara əl atdı.

### Mülki əhali və infrastruktur obyektləri hədəfə alınmadı

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsinin sıradan çıxması və mülki şəxslərin həlak olması, həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımızın həlak olması və yaralanması Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamı idi.

Bu həm də 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsinin regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olduğunun sübutu oldu.

Buna görə də sentyabrın 19-da Azərbaycan üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı.

Sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyev söylədi ki, antiterror tədbirləri nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordu bölmələrinin böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Xüsusi qeyd edək ki, lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimiz tərəfindən mülki əhali və infrastruktur obyektləri hədəfə alınmadı, yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı.

Humanizm nümunəsi olan bu vacib məqama toxunan dövlət başçısı müraciətində vurğuladı ki, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

### İmza qədər dəyərli söz

Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da Azərbaycanın irəli sürdüyü şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu.

Bakının şərtlərini isə Prezident İlham Əliyev hələ sentyabrın 19-da ona zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinkenə çatdırmışdı: antiterror tədbirlərini dayandırmaq üçün Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda bütün silahları və texnikaları təhvil verməlidirlər.

Sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyev məlumat verdi ki, sözügedən tarixdə səhər saatlarında artıq şərtlərimizin qəbul edildiyi bildirildi: "Üstəgəl, bir neçə ay ərzində nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi".

### Zərgər dəqiqliyi ilə aparılan müdrik siyasət

Bildirək ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələlərinin müzakirə edilməsi üçün Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabr 21-də Yevlaxda görüş keçirildi. Bu görüşün özü də bir daha sübut etdi ki, Azərbaycan hakimiyyəti Qarabağda yaşayan erməniəsilli sakinlərin reinteqrasiya məsələsində qərarlıdır.

"Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur", - deyə sentyabrın 20-də xalqa müraciəti zamanı bu məsələ ilə bağlı dövlət başçısı İlham Əliyev bildirdi ki, bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq: "Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".

Bəli, qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə, zərgər dəqiqliyi ilə apardığı müdrik siyasətin nəticəsində 2023-cü ilin 20 sentyabr günü daha bir qürur, şərəf tariximizə çevrildi.

Xalqımızın erməni separatizmi üzərində qəti qələbəsinin təcəssümü, "Qarabağ Azərbaycandır!" həqiqətinin parlaq təzahürü olan bu qələbə həm də Azərbaycanın haqlı mövqeyinin təsdiqi, suverenliyimizin bərpa edilməsi, ümumilikdə milli maraqlarımızın təmini kimi tarix salnaməmizə qızıl hərflərlə yazıldı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 22 sentyabr.- S.6.